AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASI

*Əlyazması hüququnda*

NAMAZOV AZƏR ƏLYAR OGLU

# İQTISADIYYATIN MAKROIQTISADI TƏNZIMLƏNMƏSINDƏ MALIYYƏ MƏNBƏLƏRINDƏN SƏMƏRƏLI ISTIFADƏ

**5304.01 - İqtisadi fəaliyyət növləri**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

**Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor **İsa Hüseyn oğlu Alıyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru **Sevda Məmməd qızı Mikayılova**

iqtisad üzrə fəlsəfə doktoru **Yaşar Əzimaga oglu Məmmədov**

**Aparıcı təşkilat:** Azərbaycan Memarlıq və İnşaat Universiteti

Dissertasiya işinin müdafiəsi “14 ” May 2015-ci il saat “11:$^{00}$ ”-da Azərbaycan Dövlət Neft Akademiyasında fəaliyyət göstərən D.02.141 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı şəhəri,Azadlıq prospekti,34. Azərbaycan Dövlət Neft Akademiyası.

Dissertasiya işi ilə ADNA-nın əsaslı kitabxanasında tanış olmaq olar.

Avtoreferat “ 12 ” Aprel 2015-ci ildə göndərilmişdir.

**D.02.141.Dissertasiya şurasının elmi katibi, t.e.d.,professor** **Ə.M.Əliyev**

**Işin aktuallığı.**Qloballaşma şətaitində bazar sisteminin fəaliyyəti dövlət tənzimlənməsinin diqqət mərkəzindədir. Son dünya maliyyə-iqtisadi böhran aparıcı ölkələrin makroiqtisadi tənzimlənməsinin problemlərini ifşa etdi. Belə ki, bir çox Avropa ölkələri, ABŞ və Yaponiya bu böhranın təsirinə məruz qalmışdır. Azərbaycanda isə o dövrdə iqtisadi vəziyyət nisbətən daha yaxşı idi. Bizim ölkəmizin inkişafında yanacaq-energetika faktoru daima mühüm əhəmiyyət kəsb edir. Statistik məlumatlara görə, Azərbaycan büdcəsinin gəlir hissəsində neft sektorundan gələn mənfəətin xüsusi çəkisi ümumi gəlir məbləğində 70%-ə yaxındır. Bu isə hökümətimizdən "holland sindromu" adlanan problemin qarşısın alınması istiqamətində ciddi addımların atılmasını tələb edir. Bu baxımdan dövlət makroiqtisadi siyasətinin maliyyə mənbələrinin və alətlərinin rolu olduqca əhəmiyyətlidir. İqtisadiyyatın maliyyə-investisiya tənzimlənməsi nəinki makroiqtisadi sabitliyin qorunmasına, həmçinin bütün sahələrin tarazılaşmış şəkildə inkişafına xidmət edir.

Müasir dövrdə dövlətimizin qarşısında milli iqtisadiyyatımızın dayanaqlı və səmərəli inkişafını təmin etmə məsələsi durur. Bu isə iqtisadi inkişaf prosesinə təsir edən bütün amillərin nəzərə alınmasını zəruri edir. Eyni zamanda makroiqtisadi tənzimləmə prosesində onun obyektinin, forma və mexanizmlərinin, həmçinin təsir müddətinin düzgün seçilməsi,tənzimləmə prosesinin mənfi nəticələrinin azalmasına səbəb olur.

Dövlət makroiqtisadi tənzimləmənin rolunun və yerinin müəyyən edilməsi müasir dövrdə aparıcı ölkələrin əksəriyyətində aparılan iqtisadi tədqiqatlarda ön yerdədir. Hal-hazırda qloballaşma prosesini nəzərə alaraq, dövlətin iqtisadi artım məqsədini gerçəkləşdirmək üçün bütün resurslardan, həmçinin qanunvericilik, iqtisadi, siyasi-inzibatı imkanlardan istifadə edilməlidir.

Bu ondan irəli gəlir ki, bazar sistemi özü özlüyündə müasir sosial-iqtisadi problemləri həll etməyə qadir deyil və burada mütləq dövlət müdaxiləsi olmalıdır.

Ümumiyyətlə, təbii resursları zəngin olan və iqtisadi münasibətlərinin transformasiya mərhələsini keçən iqtisadi sistemlərin dayanaqlı inkişafının təmin edilməsi dünyada xüsusi maraq doğurur. Buna isə maliyyə mənbələrinin inkişafını, pul-kredit, vergi siyasətinin tətbiq etdiyi alət və mexanizmlərinin daha da

səmərəli istifadə olunmasını, makroiqtisadi tənzimləmənin optimal şəkildə təşkil edilməsini təmin etmədən nail olmaq mümkün deyil, ya da çox az etimalı var.

Ona görə də makroiqtisadi tənzimləmənin maliyyə alətlərinin səmərəliliyinə dair təhlilin aparılması, bu alətlərin və mənbələrin kompleks şəkildə istifadəsinə dair təklif və tövsiyələrin hazırlanması seçilmiş mövzunun aktuallığını müəyyən etmişdir.

**Problemin öyrənilmə dərəcəsi.** Azərbaycan iqtisadçı-alimləri, həmçinin keçmiş sovet iqtisadi məktəbinin və aparıcı ölkələrin görkəmli nümayəndələrinin bu probleme müxtəlif yönümlü yanaşmaları və əldə etdikləri mühüm elmi-təcrübi nəticələr tədqiqatın əsasını təşkil edir. Belə ki, A.A.Nadirov, Z.Ə.Səmədzadə, A.A.Ələskərov, Ə.X.Nuriyev, İ.H.Alıyev, T.N.Əliyev, M.C. Atakişiyev, G.Z.Yuzbaşeva, E.M.Hacızadə; xarici alimlərdən Abalkin L.İ., Libman A.M., Suxarev O.S., Yasin Y.Q., Oreşin V.P., Popov R.A., Oyken V., Şumpeter Y., Saks S., Larren O., Dolan E.,Stiqlits Y. və digər alimlər öz elmi əsərlərində makroiqtisadi məsələləri tədqiq edib.

**Tədqiqatın məqsəd və vəzifələri.** Təqiqatın məqsədi makroiqtisadi tənzimləmənin mövcud vəziyyətinin təhlili əsasında maliyyə mənbələrindən səmərəli istifadəsinə dair təklif və tövsiyələrin işləməsindən ibarətdir. Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- Makroiqtisadi tənzimləmənin məzmunu, məqsəd və üsüllarının araşdırılması;
- Makroiqtisadi siyasətin həyata keçirilməsində maliyyə mənbələri və alətlərinin rolunun müəyyən edilməsi;
- Iqtisadi subyektlərin fəaliyyətini qiymətləndirməyə imkan verən yeni göstəricilər sisteminin hazırlanması;
- Makroiqtisadi təmzimləmənin vergi alətlərinin səmərəliliyinin qiymətləndirilməsi;
- Beynəlxalq maliyyə təşkilatlarının Azərbaycanda makroiqtisadi sabitliyin təmin edilməsində rolunun qiymətləndirilməsi;
- Müasir dövrdə tətbiq edilən makroiqtisadi tənzimləmənin maliyyə alətlərinin təkmilləşdirilməsi yollarının müəyyən edilməsi;

- İqtisadiyyatın dayanaqlı inkişafının təmin edilməsinə dair təkliflərin hazırlanması.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti Azərbaycan Respublikasının milli iqtisadyyatının sahələridir. Tədqiqatının predmetini milli iqtisadiyyatın tənzimlənməsinin maliyyə mənbələrindən istifadə prosesi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri-metodoloji əsasını iqtisad elminin klassik nəzəri müddəaları, respublika və xarici ölkə tədqiqatçılarının bu problemə həsr edilmiş elmi əsərləri, qanunvericilik aktları və digər normativ-hüquqi sənədlər təşkil edir.

**Tədqiqatın informasiya bazası**. Dissertasiya işini yerinə yetirilməsində Azərbaycan Dövlət Statistika Komitəsinin, Beynəlxalq Maliyyə Təşkilatlarının, müvafiq dövlət qurumlarının hesabat materiallarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Makroiqtisadi tənzimləmənin məzmunu, üsülları və səmərəlilik göstəriciləri araşdırılıb dəqiqləşdirilmişdir;
- “Səmərəlilik” anlayışının nəzəri təhlili aparılıb və onun məzmunu dəqiqləşdirilib;
- Makroiqtisadi siyasətin gerçəkləşdirilməsində müasir maliyyə mənbələri və alətlərinin rolu müəyyən olunmuşdur;
- İqtisadi subyektlərin səmərəliliyini əks etdirən göstəricilər tərtib edilmişdir;
- Makroiqtisadi təmzimləmənin vergi alətlərinin və beynəlxalq maliyyə təşkilatlarının Azərbaycanda makroiqtisadi sabitliyin təmin edilməsində rolu və səmərəliliyi qiymətləndirilmişdir;
- Milli iqtisadiyyatın makroiqtisadi tənzimlənməsi sxemi təklif edilmişdir;
- Dövlətin amortizasiya siyasətinin təkmilləşdirilməsi istiqamətləri göstərilmişdir;
- İnvestisiya mühitini yaxşılaşdıran tədbirlər planı tövsiyə edilmişdir;
- Qabaqlayıcı antiböhran və antiinflyasiya tədbirləri haqqında tövsiyələr işlənib hazırlanmışdır;
- Iqtisadiyyatın dayanaqlı inkişaf etdirilməsində Belarus Respublikasının təcrübəsindən istifadə edilib.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** İşdə əsaslandırılan nəzəri-metodoloji müddəalar, təklif və tövsiyələr iqtisadi tənzimləməni həyata keçirən hökümət təşkilatlarının fəalyyətində, həmçinin ADİU-nin «Makroiqtisadiyyat» fənninin tədrisində istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dsissertasiya işinin əsas nəticələri beynəlxalq və respublika səviyyələrində keçirilmiş müxtəlif konfrans və seminarlarda məruzə olunmuş və müzakirə edilmişdir.

**Məqalələrin nəşri.** Disseretasiya işinin mühüm nəticələrinə həsr edilmiş 6 elmi məqalə və tezislər dərc olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi**. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işində 147 səhifə mətn hissəsi,o cümlədən 13 şəkil, 8 cədvəl var. Dissertasiyada 110 adda ədəbiyyat mənbəsi istifadə edilmişdir

## İşin əsas məzmunu

**Giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti aydınlaşdırılmış, məqsəd və vəzifələri verilmiş, tədqiqat işinin nəzəri və metodoloji əsasları, elmi yeniliyi və təcrübi əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin **"İqtisadiyyatın makroiqtisadi tənzimləməsinin nəzəri-metodoloji əsasları"** adlı birinci fəslində makroiqtisadi tənzimləmənin nəzəri-metodoloji aspektləri, makroiqtisadi tənzimləmədə maliyyə alətləri, İqtisadiyyatın səmərəli dövlət tənzimlənməsinin müasir meyarları tədqiq olunmuşdur.

Bazar iqtisadiyyatı münasibətləri şəraitində iqtisadiyyatın makroiqtisadi tənzimlənməsi dedikdə qanunverici-icraedici və nəzarətedici xarakterli sistem başa düşülür. Sözügedən sistemin mövcud şəraitə uyğunlaşması baxımından dövlət idarələri və ictimai təşkilatlar xeyli işlər görməkdədirlər. Ədalətli rəqabət mühiti şəraitində, neqativ sosial və iqtisadi proseslərin nəticələrinin aradan qaldırılması üçün dövlətin iqtisadiyyata müdaxiləsi istehsal proporsiyalarında mütərəqqi nisbət və tənasüblərə nail olunmasına xidmət edir. Dövlətin iqtisadi proseslərə təsiri zamanı dövlət

mexanizmləri ilə bazarın öz-özünü tənzimləmə mexanizmləri bir-biri ilə həmahəng olaraq fəaliyyət göstərirlər. Bazar ayrı-ayrı əmtəə və xidmətlər üzrə ixtisaslaşan istehsalçılar arasında mübadilənin həyata keçirilməsi funksiyasını həyata keçirir, eyni zamanda istehsal xərclərinin azaldılmasına təsir göstərək alıcıları qənaətə meylli edir və bütün bunlar isə son nəticədə gəlirlərin artmasına səbəb olur. Məlumdur ki, MDB-nin bir çox dövlətləri əvvəllər müstəqillik əldə etməzdən öncə inzibati amirlik üsulları ilə, mərkəzləşmiş qaydada idarə olunurdular. Sözügedən dövlətlər müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın bazar iqtisadiyyatı münasibətləri əsasında yenidən təşkil olunması zərurəti meydana çıxdı. Bu isə öz növbəsində kifayət qədər mürəkkəb iş idi. Çünki hər bir dövlət bazar iqtisadiyyatına keçid şərait və imkanlarına uyğun öz yolunu seçməli idi. BMT-nin təsnifatına görə bu dövlətlər keçid dövrü ölkələri kimi xarakterizə olunmuşlar. Adekvat nəzəri baza olmadan keçid dövrü iqtisadiyyatının tənzimlənilməsi cəhdləri əvvəlki dövrlər üçün xarakterik olmayan bir sıra yeni problemlərin meydana çıxmasına səbəb olmuşdur. Əvvəllər mövcud olan sabit və möhkəm iqtisadi əlaqələr dağılmış, bank hesablamaları sistemi iflic vəziyyətə düşmüşdü. Sıx kooperasiya əlaqələri əsasında fəaliyyət göstərən müəssisələr faktiki olaraq özlərinin işgüzar tərəfdaşlarını itirdilər. Belə bir vəziyyətdə dövlətin makroiqtisadi tənzimlənmə funksiyasının reallaşdırılması məsələsi olduqca əhəmiyyətli bir məsələyə çevrildi. Problemin məğzi aşağıdakı kimi ifadə oluna bilər. Əvvələr iqtisadiyyatın inzibati-amirlik üsulları ilə idarə olunması şəraitində makroiqtisadi tənzimlənmənin bir elm kimi kifayət qədər inkişaf etmək imkanları yox idi. Digər tərəfdən rəsmi statistik göstəricilərin hesablanması üsulu real olaraq, iqtisadiyyatın vəziyyətini əks etdirmirdi. Üçüncüsü, keçid dövrü yaşayan ölkələrin mütəxəssislərin səviyyəsi meydana çıxan nəzəri və praktiki cəhətdən,yeni problemlərin həlli yollarının müəyyənləşdirilməsi baxımından qənaətbəxş deyildi. Qeyd etmək lazımdır ki, SSRİ dövrünün makroiqtisadi siyasətinin öyrənilməsi ilə əlaqədar aparılan tədqiqatların nəticələrindən məlumdur ki, bu siyasət əhəmiyyətli dərəcədə sistematik xarakter daşıyır, burada maliyyənin mahiyyət və funksiyalarına bütünlükdə maliyyə sisteminə böyük diqqət yetirilirdi.Bu isə onunla əlaqədar idi ki, inzibati-amirlik sistemi şəraitində iqtisadiyyatın maliyyə tənzimlənməsi dövlət tərəfindən

iqtisadi reallıqlar nəzərə alınmadan, konkret müəyyənləşdirilən plana əsasən həyata keçirilirdi. Bütün bunların nəticəsində isə natural-əşya və maddi göstəricilərə istinad edən dünya iqtisadiyyatın tarazlaşdırılmış iqtisadi inkişaf konsepsiyasını üstələdi, müvafiq olaraq disproporsiyalar meydana çıxdı. Disproporsiyalar ən çox özünü investisiya və büdcə sferalarında büruzə verməyə başladı. Demək olar ki, büdcə dövlət planı arxasınca sürüklənirdi. Burada uzunmüddətli makroiqtisadi proporsiyaların təmin olunması və tənzimlənməsindən, iqtisadiyyatın hərtərəfli tənzimləyicilərinin mövcudluğundan söhbət gedə bilməzdi. (şəkil 1).




**Şəkil 1. Makroiqtisadi tənzimlənmənin birbaşa təsir üsulları**

Makroiqtisadi tənzimlənməyə olan müasir yanaşmalar elmi yanaşmalardır və burada dövlətin iqtisadi problemləri həll edilməsinə birbaşa və yaxud dolayısı yollarla müdaxiləsi üçün fundamental əsaslar mövcuddur. Bu səbəbdən də tədqiqatın sözügedən hissəsində

dövlət tərəfindən iqtisadi tənzimlənmənin uğurla həyata keçirilməsi makroiqtisadi siyasət ilə sıx bağlıdır.

Dövlət tərəfindən iqtisadi proseslərin dolayısı yollarla tənzimlənməsi üsulları bir qayda olaraq əmtəə-pul rıçaqlarına əsaslanır. Burada təsərrüfat fəaliyyəti subyektlərinin iqtisadi maraqlarına təsir göstərilir (şəkil 1).

Makroiqtisadi tənzimlənmənin birbaşa təsir üsulları aşağıdakılardır:

- vergi mükəlləfiyyətləri, vergi öhdəlikləri və stavkaları, vergi imtiyazları sistemi;
- qiymətlərin tənzimlənməsi, onların səviyyə və nisbətləri;
- resurslara görə ödənişlər, kredit stavkaları və imtiyazlı kreditlər;
- ixrac və idxalın gömrük rüsumları vasitəsi ilə tənzimlənməsi;
- valyuta kursları və valyuta mübadiləsi kurslarının tənzimlənməsi.




**Şəkil 2. Makroiqtisadi tənzimləmənin dolayısı təsir üsulları.**

Qeyd etmək lazımdır ki, iqtisadi tənzimləmədə birbaşa üsulların tətbiq olunması əlavə maddi stimulların yaradılması və yaxud

maliyyə itkiləri ilə əlaqədar deyil və burada dövlət hakimiyyətinin gücü böyük rol oynayır.

Bazar iqtisadiyyatı inkişaf etdikcə vasitəli iqtisadi tənzimlənmə üsullarının tətbiq olunması arealı xeyli genişlənir və müvafiq olaraq dövlətin iqtisadiyyata birbaşa müdaxilə arealı daralmış olur. Dövlət tənzimlənməsində ən ümdə yer proqramlaşdırma və planlaşdırmaya, həmçinin proqnozlarının işlənilib hazırlanmasına ayrılır və burada da dövlətin rolu çox böyükdür.

Makroiqtisadi tənzimlənmədə daha çox istifadə olunan digər vasitə və yaxud alət riyazi-iqtisadi modelləşdirmə üsuludur. Burada iqtisadiyyatın sahələri arasında proporsiyalar, istehsal sahələrinin ölkənin regionlarında yerləşdirilməsi və məskunlaşdırma sistemi ilə və s. əlaqədar hesablamalar aparılır.




**Şəkil 3. Milli iqtisadiyyatın makroiqtisadi tənzimlənməsi sxemi.**

Riyazi-iqtisadi modelləşdirmədə ölçülər nümunələrə əsasən qurulur. İqtisadi model sosial-iqtisadi prosesdə tədqiq edilən obyektin şərti obrazı kimi qəbul olunur. Yəni tədqiq edilən obyektin bir növ bənzəri və yaxud oxşarı da hesab oluna bilər. Modelləşdirmə bir sıra faktorların kəmiyyət göstəriciləri arasında qarşılıqlı əlaqənin müəyyənləşdirilməsinə imkan yaradır. Proqnozlaşdırmada tətbiq olunan riyazi-iqtisadi modellərin ciddi təsnifatının verilməsi olduqca çətindir. Lakin yenə də şərti də olsa bir neçə qrupa bölmək olar:

- Retrospektiv xarakterli statistik informasiyanın təhlili ilə əlaqədar ekonometrik tipli modellər;
- Amillər təhlili əsasında qurulan riyazi iqtisadi modellər.

Bütün bunlar bu və ya digər iqtisadi həcm ölçüsü vahidlərinin (asılı və dəyişkən) bir və ya bir neçə faktorlardakı (müstəqil dəyişkən) dəyişikliklər əsasında proqnozlaşdırılmasını mümkün edir.

Dünya ölkələrinin təcrübələri göstərir ki, inzibati amirlik iqtisadiyyatından bazar iqtisadiyyatı prinsiplərinə transformasiya prosesini yaşayan iqtisadiyyatlarda makroiqtisadi tənzimlənmənin inkişaf etmiş ölkələrdən fərqli cəhətləri mövcuddur. Bu ölkələrdə iqtisadiyyatın bazar prinsipləri əsasında transformasiya olunması üçün dövlət əmlakının özəlləşdirilməsi kimi ağrılı bir problemin həll olunması tələb olunur və müvafiq olaraq bütün bunlar həyata keçirildi. Lakin bunun üçün müəyyən zaman sərf olundu. Bu müddətdə praktiki olaraq, orta və iri həcmli müəssisələrin normal fəaliyyət göstərməsini təmin etmək qeyri mümkün olmuşdur. Həmin müəssisələrin fəaliyyəti bir zamanlar ancaq keçmiş SSRİ məkanında istehsalın təşkil olunmasına istiqamətlənmişdi. Lakin inteqrasiya əlaqələri zəiflədikdən sonra bu müəssisələrdə istehsal edilən məhsulların satış bazarları itirilmiş oldu. Nümunə üçün 90-cı illərdə Bakı Dərin Dəniz Özülləri Zavodunda baş verənlər göstərilə bilər. Bu müəssisələrin mənəvi cəhətdən köhnəlmiş avadanlıqları vasitəsi ilə dünya bazarlarına çıxarıla biləcək məhsulların istehsal olunması qeyri mümkün idi. Təbii ki, belə bir şəraitdə, yəni inkişafda olan ölkələrdə istehsalın səviyyəsinin ölçülə bilməz dərəcədə aşağı düşməsi inflyasiya ilə və bəzən də hiperinflyasiya ilə müşayiət edilən maliyyə böhranına səbəb olmuşdur. Bütün bunlar isə öz növbəsində iqtisadi islahatların mütləq dərəcədə daha əlverişli bir şəraitdə həyata keçirilməsi üçün tələb edilən zəminin yaradılmasını tələb edirdi. Birinci növbədə inflyasiyanın artım sürətinin qarşısı alınmalı idi.

Çünki hiperinflyasiya keçirən iqtisadiyyat dərin böhran keçirmiş olur, həmin ölkədə sosial gərginlik isə ehtimal edilən bütün hədləri aşmışdı. Məhz belə bir vəziyyətlərdə maliyyə sabitliyinin təmin olunması üçün, həmçinin Azərbaycanda daxil olmaqla keçid dövrü prosesində olan ölkələrdə iqtisadi islahatların həyata keçirilməsi üçün maliyyə alətləri makroiqtisadi siyasətdə uğurlu nəticələr əldə olunmasına köməklik edir.

Dissertasiya işinin "**İqtisadiyyatın makroiqtisadi tənzimlənməsinin qiymətləndirilməsi**" adıl ikinci fəslində makroiqtisadi tarazılığın vergi tənzimlənməsinin qiymətləndirilməsi, Azərbaycanda beynəlxalq maliyyə təşkilatların kredit və investisiyalarından istifadənin təhlili, makroiqtisadi tənzimləmədə xarici iqtisadi əlaqələrin və gömrük tariflərin qiymətləndirilməsi məsələləri tədqiq olunmuşdur.

Vergilər bazar iqtisadiyyatının ayrılmaz elementlərindən biridir. Bazar iqtisadiyyatı münasibətləri şəraitində, vergi kriteriyalarına əsasən formalaşan iki model xüsusi ilə diqqəti cəlb edir.

Bunlar 1-ci liberal və 2-ci sosial təmayüllü bazar iqtisadiyyatı modelləridir. Burada hər hansı bir modelə üstünlük verilməsi istehsala tətbiq edilən vergi mükəlləfiyyətlərinin həcmi və ağırlığı göstəricilərinə əsasən müəyyənləşdirilir. Adından da göründüyü kimi liberal modeldə dövlət minimum dərəcədə vergilərin alınmasını gerçəkləşdirir, sosial təmayüllü modeldə isə vergilərin yüksək dərəcələri, geniş vergi ödəyiciləri dairəsi, bir o qədərdə diqqəti cəlb etməyən vergi imtiyazları və s. mövcuddur. Hər hansı bir modelin seçilməsindən asılı olmayaraq formalaşan vergi siyasəti isə öz növbəsində dövlətin makroiqtisadi tənzimlənmə siyasətinin reallaşdırılmasına xidmət edir.

Vergi siyasətinin tənzimləyici funksiyası vergilər vasitəsi ilə həyata keçirilir. Burada vergilərin bir sıra funksiyaları mövcuddur. Vergilərin fiskal funksiyası vergi siyasətinin əsas məqsədinin reallaşdırılmasını təmin edir. Yəni vergi ödəyicilərindən maliyyə vəsaitlərinin alınaraq mərkəzləşdirilmiş qaydada dövlətin maliyyə fondlarına daxil olmasını təmin edir. Vergilərin fiskal funksiyası eyni zamanda dövlət büdcəsinin formalaşmasında əhəmiyyətli rol oynayan pul gəlirlərinin formalaşmasını təmin edir. Vergilərin bölgü funksiyasını bəzən sosial funksiya da adlandırırlar, bu funksiya ayrı-

ayrı əmtəə növlərinin satışı üzrə aksizlər və mütərəqqi gəlir mexanizmi vasitəsi ilə gerçəkləşdirilir. Vergilərin tənzimləyici funksiyası vasitəsi ilə dövlət bazar iqtisadiyyatında tənzimləyici rolunu reallaşdırır. Burada diferensiallaşdırılmış vergi dərəcələri, vergi imtiyazları, cərimələr və s. tətbiq olunur. Nəzarətedici funksiyası ilə dövlət hüquqi və fiziki şəxslərin, iqtisadi subyektlərin maliyyə-təsərrüfat fəaliyyətlərinə nəzarət edir, təkrar istehsal funksiyası vasitəsi ilə büdcə fondları və bütünlükdə təkrar istehsalın təminatçısı kimi çıxış edən fondlar təkrar bərpa olunur. Mükafatlandırıcı funksiyası ilə müəyyən vergi güzəştləri verilərək hər hansı bir fəaliyyət sahəsi stimullaşdırılır. Bütün bu funksiyaların hər birinin ayrı-ayrılıqda və ümumilikdə uğurla reallaşdırılması eyni zamanda dövlətin uğurlu makroiqtisadi siyasətinin tərkib hissəsi kimi də diqqəti cəlb edir.

Son qlobal iqtisadi böhranın təhlili zamanı əldə olunmuş elmi nəticələrdə göstərdi ki, böhranın əsas səbəblərindən biri də bir çox iqtisadi məsələlərin həllinin müvəqqəti də olsa dövlətin nəzarətindən yayınması olmuşdur. Göründüyü kimi, istər makro istərsə də mikro səviyyələrdə iqtisadi münasibətlərin dövlət tərəfindən tənzimlənməsinə ehtiyac vardır. Xüsusən də bizim diqqətimizi makroiqtisadi tənzimlənmə və sözügedən tənzimlənmənin həyata keçirilməsi mexanizmləri cəlb edir. Çünki bazar iqtisadiyyatı münasibətləri şəraitində baş verən sosial iqtisadi proseslərin neqativ təsirlərinin aradan qaldırılması üçün dövlət tərəfindən iqtisadi tənzimlənmənin həyata keçirilməsi və bunun üçün işlək mexanizmlərin fəaliyyətdə olmasını təşkil etmək məsələsi olduqca vacib məsələdir. Burada eyni zamanda tənzimləmə mexanizmləri elə fəaliyyət göstərməlidir ki, bazar iqtisadiyyatı münasibətləri şəraitində iqtisadi inkişafa təkan verən stimullar aradan qalxmasınBunlar istər inzibati, istərsə də iqtisadi məzmun daşısa da anacaq bir məqsədə xidmət etməlidir. Hər bir cəmiyyət üzvünün, istehsal istehlakçı, istərsə də istehlakçı kimi geniş iqtisadi münasibətlər sisteminin bütün iştirakçı tərəflərinin maraqlarının təmin olunmasında optimal tarazlıq əldə olunmalıdır. Konkret olaraq, bazar iqtisadiyyatı münasibətləri şəraitində istehsalçı və istehlakçılara tətbiq edilən optimal vergi kriteriyalarının müəyyənləşdirilməsi məsələsi xüsusi olaraq diqqəti cəlb edir.

Makroiqtisadi tənzimlənmənin əhəmiyyətli alətlərindən biri kimi, vergi siyasəti elə qurulmalıdır ki, burada bir tərəfdən istehsalçı mənfəəti təmin olunsun, digər tərəfdən istehlakçı və ən əhəmiyyətlisi fiskal maraqlar qorunsun. Göründüyü kimi, söhbət makroiqtisadi tənzimləmədən gedirsə burada önə çıxan məsələ büdcə və vergi kriteriyaları arasında optimal nisbətlərin təmin olunması məsələsidir. Yəni bir mənalı olaraq qeyd etmək mümkündür ki, heç kimdə şübhə yaranmır ki, dövlət büdcəsinə hər nə qədər çox vəsait daxil olarsa dövlət vergilərdə daxil olmaqla müxtəlif requlyatorlar vasitəsi ilə makroiqtisadi tənzimlənməni daha səmərəli üsul və imkanlarla həyata keçirə bilər. Lakin bu zaman digər, daha bir önəmli məsələ meydana çıxır, vergi borcları.

Azərbaycan Respublikasında vergi borclarının uçotunun aparılması istiqamətində əhəmiyyətli tədbirlərin 1998-ci ildən etibarən həyata keçirilməsinə başlanılmışdır. Bütün bunları nəzərə alaraq, tədqiqat işində 1998-2012-ci illər ərzində vergi borcları və onlara tətbiq edilən maliyyə sanksiyaları ilə əlaqədar hesablamalar aparılmışdır.( Cədvəl 1)

**Cədvəl 1. Azərbaycanda vergi borcların həcmi (mln.manat)**

| İllər | Məcmu vergi borcları | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | O cümlədən: | | | | | | |
| | Cəmi borcun məbləği | Əsas vergi borcu | Cəmi borcda xüsusi çəkisi (%) | Maliyyə sanksiyaları | Cəmi borcda xüsusi çəkisi (%) | Faizlər | Cəmi borcda xüsusi çəkisi (%) |
| 01.01.1998 | 187,0 | 139,9 | 74,8 | 10,4 | 5,6 | 36,7 | 19,6 |
| 01.01.1999 | 443,4 | 299.1 | 67,5 | 28,6 | 6,5 | 115.7 | 26,1 |
| 01.01.2000 | 1046,2 | 640,2 | 61,2 | 49,6 | 4,8 | 356,4 | 34,1 |
| 01.01.2001 | 1384,9 | 778,3 | 56,2 | 49,7 | 3,6 | 556,9 | 40,2 |
| 01.01.2002 | 1554,3 | 962,0 | 61,9 | 65,9 | 4,2 | 526,4 | 33,9 |
| 01.01.2003 | 1752,0 | 1227,8 | 70,1 | 65,2 | 3,7 | 459,0 | 26,2 |
| 01.01.2004 | 1658,3 | 1036,4 | 62,5 | 80,6 | 4,9 | 541,3 | 32,6 |
| 01.01.2005 | 1071,0 | 653,0 | 61,0 | 78,5 | 7,3 | 339,5 | 31,7 |
| 01.01.2006 | 2010,0 | 1410,8 | 70,2 | 101,6 | 5,1 | 497,6 | 24,8 |
| 01.01.2007 | 1933,9 | 1456,7 | 75,3 | 5,5 | 0,3 | 471.7 | 24,4 |
| 01.01.2008 | 2702,2 | 1804,4 | 66,8 | 109,7 | 4,1 | 788,1 | 29.2 |
| 01.01.2009 | 4151,1 | 2.438,3 | 58,7 | 163,2 | 3,9 | 1549,6 | 37,3 |
| 01.01.2010 | 5465.1 | 2842,3 | 52,0 | 281,7 | 5,2 | 2341,2 | 42,8 |
| 01.01.2011 | 3847,3 | 2485,1 | 64,6 | 317,2 | 8,2 | 1045,1 | 27,2 |
| 01.01.2012 | 3089,1 | 1629,3 | 52,7 | 370,4 | 12,0 | 1089,4 | 35,3 |

Dissertasiyanın **“Milli iqtisadiyyatın makroiqtisadi tənzimlənməsində maliyyə mənbələrindən səmərəli istifadənin mühüm istiqamətləri”** adlı üçüncü fəslində makroiqtisadi tənzimləmədə maliyyə mənbələrdən istifadənin təkmilləşdirilməsi, milli iqtisadiyyatın inkişafının maliyyə mexanizmlərin inkişaf yolları, iqtisadiyyatın dayanıqlı inkişafının maliyyə təminatının təkmilləşdirilməsi kimi məsələlər açıqlanmışdır.

Mahiyyət etibarilə hökumətin vergi siyasəti bir tərəfdən fiskal təyinatlı olur, digər tərəfdən, iqtisadi inkişafın stimullaşdırılması vəzifəsini həyata keçirir. Vergi siyasətinin bu iki istiqamətinin məqsədəuyğun nisbəti zaman-zaman dəyişir. Diqqəti ikinci istiqamətə cəlb etmək istərdik. Araşdırmalarımız göstərir ki, Azərbaycanın qanunlarında təsərrüfat subyektləri üçün çoxsaylı vergi güzəştləri tətbiq olunur

Amma bu güzəştlərin xoş məramdan irəli gəldiyini etiraf etməklə, onun mənfi cəhətlərini də yaddan çıxarmaq lazım deyil. Məsələn, aqrar sektorun torpaq vergisi istisna olmaqla bütün vergilərdən qeyd-şərtsiz azad edilməsi bir tərəfdən kənd təsərrüfatının investisiya təminatına mənfi təsir edir, digər tərəfdən də dövlət büdcəsinin gəlirlərini azaldır. Odur ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına müəyyən müddətə vergi dərəcələrinin aşağı səviyyədə müəyyən edilməsi daha məqsədəuyğun olardı. Özü də o şərtlə ki, onlar güzəştdən əldə etdikləri maliyyə vəsaitlərini investisiya kimi təsərrüfatlarda istifadə etsinlər. Ümumiyyətlə, beynəlxalq təcrübə və apardığımız tədqiqatlar göstərir ki, güzəştlərə yenidən baxılmalıdır. Burada diqqət yetirməli mühüm məqam ondan ibarətdir ki, bütün hallarda vergi güzəştləri investisiya qoyuluşu ilə şərtləndirilsin, özü də müəyyən müddətə verilməklə, ancaq prioritet sahələrə və prioritet regionlara şamil edilsin.

Regionların və iqtisadi sektorların investisiya baxımından cəlbediciliyini yüksəltmək məqsədilə vergi dərəcələrinin differensiallaşdırılmasının böyük əhəmiyyəti var. Beynəlxalq təcrübədə geniş istifadə olunan bu yanaşma təəssüf ki, bizim ölkəmizdə tətbiq edilmir. Ümumiyyətlə, Azərbaycanda cəmi 9 növ vergi tətbiq edilir. İnkişaf etmiş ölkələrdə isə çoxsaylı vergi növləri, məsələn, Yaponiyada 25 dövlət və 30 yerli vergi növü mövcuddur.

Vergi növlərinin diversifikasiyası istiqamətində nəzəri-

metodoloji baxımdan elmi-tədqiqat işlərinin aparılmasına da ehtiyac var. Emal sənayesində və kənd təsərrüfatı məhsulları istehsalının prioritet sahələrində əlverişli investisiya mühiti yaratmaq məqsədilə 2001-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəssisələrin dirçəlməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərən normativ müddəalar nəzərdə tutulmuşdur. Belə ki, balans mənfəətinin istehsal təyinatlı kapital qoyuluşunun maliyyələşdirilməsinə, bu məqsədlər üçün alınmış və istifadə edilmiş bank kreditlərinin ödənilməsinə yönəldilən hissəsi vergidən azad edilirdi. Amma bütün iqtisadi sektorlara şamil edilmiş bu güzəşt dövlət büdcəsinin gəlirlərinə əhəmiyyətli dərəcədə mənfi təsir edirdi. Ona görə də bu müddəa sonradan Vergi Məcəlləsindən tamamilə çıxarıldı.

Hal-hazırda xərclərin proqnozlaşdırılması və planlaşdırılmasında respublikamızın qarşısında bir sıra vacib məsələlər durur. Hesab edirik ki, bu problemlərin aidiyyəti nazirlik və idarələrdə həll edilməsinin birinci mərhələsində dövlətin minimal sosial xərclər standartları formalaşdırılmalı və qanunvericilikdə təsdiq edilməlidir.

Büdcə siyasətində prinsipial dəyişikliklər nəzərdən keçirildikdən sonra detallı olaraq gəlir və xərclər üzərində dayanmaq tələb olunur. Bu xüsusda, büdcə prosesi zamanı bəzi yenilikləri təfsilatı ilə nəzərdən keçirmək lazımdır.

Bu təkliflərə qısa izahat verək. Büdcə xərclərinin proqnozlaşdırılmasının təşkili məsələsində əsas yeri əsaslandırmalar və həcm, yerinə yetirilən işin səmərəlilik metodologiyası və üsulları tutur.

Hesab edirik ki, büdcə xərclərinin proqnozlaşdırılması prosesini üç mərhələyə bölmək lazımdır:

- Sosial infrastrukturun bütün sahələri üzrə dövlətin minimal xərcləri sisteminin formalaşdırılması;
- Respublikaların iqtisadiyyatı və maliyyələrinin xüsusiyyətləri də nəzərə alınmaqla proqnozlaşdırma metodologiyası və üsullarının ümumiləşdirilməsi;
- Proqnozlaşdırma-sosial-iqtisadi inkişaf planının, maliyyə resursları balansının və büdcə layihəsinin hazırlanması




**Şəkil 4. Gəlirlərin bölünməsi prinsipləri.**

Büdcə göstəricilərinin proqnozlaşdırılması və planlaşdırılması variantında dövlət xidmətlərinin məcmu həcmi, struktur və keyfiyyəti ilə əlaqədar göstəricilərin hesablanması təşkil edir, hansı ki, bu xidmətlərin dövlət tərəfindən hər bir vətəndaş üçün göstərilməsinə təminat verilir. Hesablama formaları və üsulları müxtəlif ola bilər. Müəllif hesab edir ki, hər bir sahə üçün işlənilib hazırlanmış normativlərin hesablanması alqoritmləri respublikanın büdcə kodeksində öz əksini tapmalıdır. Bu alqoritmlərə müvafiq olaraq hər nazirlik və idarə öz sahəsi üzrə Dövləti Minimal Xərclər Standartları Sisteminin elementlərini hazırlamalıdır, müvafiq olaraq bunları Maliyyə və İqtisadi İnkişaf Nazirliyi ilə razılaşdırmalıdır ki, bütün bunlar son nəticədə proqnozlaşdırma və planlaşdırmada istifadə oluna bilər. Yerli hakimiyyət orqanları müvafiq normativlərin hazırlanması zamanı rayonun real imkanları nöqteyi-nəzərindən çıxış etməli, sözügedən xərclərin artırılması normalarını müəyyən edə bilərlər. Lakin, bu zaman Azərbaycanın mərkəzi büdcəsindən edilən maliyyə yardımlarının əsassız şişirdilməsi də yol verilməzdir.

Dayanaqlı İqtisadi İnkişafın (Dİİ) stimullaşdırılmasının maliyyə planlaşdırılması aşağıdakı formalarda həyata keçirilməldir: uzunmüddətli planlaşdırma (uzun müddət ərzində Dİİ stimullaşdırılması üçün cəlb edilən vəasitlərin formalaşdırılması ilə əlaqədar araşdırmalar, stimullaşdırmanın strateji perspektivlərdə həyata keçirilməsi üçün maliyyə imkanlarının müəyyənləşdirilməsinə xidmət edir, burada üç ildən çox bir müddətlərdə, uzunmüddətli perspektivlərdə planlaşdırma ilə yanaşı, həmçinin Dİİ qısamüddətli planlaşdırılması nəzərədə tutulmalıdır, Dİİ stimullaşdırılmasına yönəldilən gəlirlərin və məsrəflərin istiqamətlərinin nisbətən qısa müddət üçün müəyyənləşdirilməsi həyata keçirtmək şərtilə. ( Şəkil 5)

Orta müddətli planlar bir ildən üç ilə qədər bir dövrü əhatə edir; cari planlaşdırma 1 illik bir müddət üçün nəzərdə tutulub və eyni zamanda cari planların formalaşdırılması prosesi də bir illik dövrü əhatə edir.

Dİİ stimullaşdırılmasının maliyyələşdirilməsi prosesinin bölgü və təkrar bölgü sisteminin həyata keçirilməsi stimullaşdırmanın maliyyə təminatı üsulu ilə həyata keçirilir. Dİİ stimullaşdırılmasının maliyyə təminatı – məqsədyönlü prosesdir, burada stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi üçün maliyyə vəsaitlərinin cəlb edilməsi nəzərdə tutulur və həmin vəsaitlər iqtisadiyyatın sosial, iqtisadi və ekoloji məzmun daşıyan vəzifələrinin həll edilməsinə yönəldilib. Burada əsas məqsəd dayanaqlı

iqtisadi inkişaf nail olmaq üçün daimilik və yaxud davamiyyət prinsipinin bütün əlamətlərinə nail olunması hesab olunur.




**Şəkil 5. Dİİ-nin investisiya stimullaşdırılması amilləri**

Qeyd etmək yerinə düşərdi ki, sosial-iqtisadi vəziyyətə mənfi təsir edən bir sıra makroiqtisadi faktorlarda mövcuddur, həmin faktoralara daxili bazarın məhdudlaşdırılması, inflyasiya, işsizlik, sosial transfertların ödəniş böhranı, xarici rəqabətin güclənməsi daxildir.

Qarşıya qoyulmuş məqsədlərə, həmçinin Dİİ-yə nail olunması üçün aşağıdakı vəzifələr həll edimələdir (şəkil 6.)




**Şəkil 6. İqtisadiyyatın dayanaqlı inkişaf etdirilməsinin təmin olunması üçün makroiqtisadi tənzimlənmənin vəzifələrinin sxemi.**

Makroiqtisadi problemlərin həll edilməsi məqsədi ilə xüsusi inkişaf fondu yaradılmalıdır və bu fond vasitəsi ilə hələlik böhran vəziyyətində olan, lakin çox böyük strateji əhəmiyyətli sahələrin inkişaf etdirilməsi üçün ən səmərəli layihələrin maliyyələşdirilməsi həyata keçirilməlidir. Azad iqtisadi zonaların yarardılması və xarici investisiyaların sosial iqtisadi cəhətdən zəif inkişaf etmiş rayonlara cəlb edilməsi də bu sahədə müsbət nəticələr verəcəkdi.

Beləliklə milli iqtisadiyyatın formalaşdırılması şəraitində dövlətin əsas vəzifəsi ölkənin inkişaf modelinin müəyyənləşdirilməsidir, həmin modelin həyata keçirilməsi strategiyası və taktikasının hazırlanması və ölkənin iqtisadi təhlükəsizliyi və müstəqilliyinin qorunmasının təmin olunmasıdır. Dövlət özünün yuxarıda göstərilən bütün vəzifələrini demokratik dövlətçilik prinsipləri, sosial təmayüllülük, qanunilik və milli iqtisadiyyatın himayə olunması prinsipləri əsasında gerçəkləşdirməldir.

Digər tərəfdən müasir iqtisadi şəraitdə Azərbaycan açıq qapı siyasətinə tədricən keçməyə hazırlaşdığı bir vaxtda emal sənayesinin qorunması üçün proteksionist siyasət həyata keçirməlidir. Bu siyasət gələcəkdə texniki tərəqqiyə olan marağın itməsinə səbəb olmamalıdır, eyni zamanda istehsalçıların qorunması dövlətin inhisarçı mövqelərinin gücləndirilməsi istiqamətində gerçəkləşdirilməməlidir. Son illərin nəticəsi göstərir ki, Azərbaycanda bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir və həmin tədbirlər iqtisadi inkişaf siyasəti ilə uzlaşdırılmış olaraq reallaşdırılmaqdadır.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap edilmiş** aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. Namazov A.Ə.Müasir iqtisadi inkişaf və makroiqtisadi tənzimləmə problemləri . “Kooperasiya” jurnalı, № 1, 2013..s. 9-14.
2. Namazov A.Ə. Makroiqtisadi tənzimləmənin maliyyə istiqamətləri “Kooperasiya” jurnalı, № 4, 2013,.s.68-73.
3. Namazov A.Ə. Makroiqtisadi tənzimləmənin təkmilləşdirilməsi yollarının maliyyə aspektləri. AMEA, İqtisadiyyat institutu, “Elmi əsərlər” toplusu, № 3, 2013.s..59-63.
4. Намазов А.А. Пути совершенствования применения налоговых инструментов в макроэкономическом регулировании. Россия, Дагестанский Государственный Институт Народного Хозяйства, тезисы Международной научно-практической конференции «Актуальные вопросы развития финансовой сферы стран и регионов», 2013. с. 125-128.
5. Намазов А.А. Пути обеспечения макроэкономического равновесия в экономике Азербайджана. г.Москва. Вестник Экономической Интеграции. № 3, 2013. С. 141-145.
6. Namazov A.Ə.Maliyyə sabitliyi və onun tənzimləmə aspektləri. Maliyyə Nazirliyi.”Maliyyə-Uçot” jurnalı № 4,2015.s.19-21.




**Намазов Азер Алияр оглы**

# Эффективное применение финансовых источников в макроэкономическом регулировании экономики

## Резюме

Работа состоит из введения,3-х глав, выводов и списка использованной литературы.

Во введении обосновывается актуальность исследуемой проблемы, степень ее изученности, цель и задачи исследования, его объект и предмет, теоретические и методологические основы, научная новизна и практическая значимость исследования.

В первой главе рассматриваются теоретико-методологические аспекты макроэкономического регулирования, применение финансовых инструментов в макроэкономическом регулировании, проанализированы современные критерии эффективного государственного регулирования экономики.

Во второй главе проводится оценка налогового регулирования макроэкономического равновесия, анализ использования кредитов и инвестиций международных финансовых организаций в Азербайджане, исследуются вопросы оценки роли внешнеэкономических связей, и в частности таможенных пошлин и налоговой задолженности, в макроэкономическом регулировании.

В третьей главе диссертации проводится исследование таких проблем как совершенствование применения финансовых источников в макроэкономическом регулировании, пути развития финансовых механизмов в развитии национальной экономики, совершенствование финансового обеспечения устойчивого развития экономики.

В заключении диссертации автор обобщая полученные научные результаты выдвигает свои рекомендации по решению поставленных целей и задач..

**Namazov Azer Aliyar Oglou**

# Effective application of financial sources in macroeconomic regulation of economy

## Summary

The dissertation consists of introduction, 3 chapterss, conclusion and the list of the used literature.

Relevance of the studied problem, degree of its study, the purpose and research problems, its object and subject, theoretical and methodological bases, scientific novelty and the practical importance of research locates in introduction.

In chapter 1 teoretikal and methodological aspects of macroeconomic regulation, application of financial instruments in macroeconomic regulation are considered, also modern criteria of effective state regulation of economy are analysed.

In chapter 2 the assessment of tax regulation of macroeconomic balance, the analysis of use of the credits and investments of the international financial organizations in Azerbaijan is carried out, questions of an assessment of a role of foreign economic relations, and in particular, the customs duties and a tax debt, in macroeconomic regulation are researched.

In a chapter 3 of the dissertation research of such problems as improvement of application of financial sources in macroeconomic regulation, a way of development of financial mechanisms in development of national economy, improvement of financial security of a sustainable development of economy is conducted.

In the conclusion of the dissertation, the author generalizing the received scientific results puts forward the recommendations about the solution of goals and tasks.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ НЕФТЯНАЯ АКАДЕМИЯ**

На правах рукописи

**Намазов Азер Алияр оглы**

# ЭФФЕКТИВНОЕ ПРИМЕНЕНИЕ ФИНАНСОВЫХ ИСТОЧНИКОВ В МАКРОЭКОНОМИЧЕСКОМ РЕГУЛИРОВАНИИ ЭКОНОМИКИ

**5304.01 – *Виды экономической деятельности***

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание ученой степени доктора философии по экономике

**БАКУ 2015**